# Xalq şairi Bəxtiyar Vahabzadəyə həsr olunan dəyirmi masa

**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyinə həsr edilən tədbir keçirilib.**



Tədbiri AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru f.e.d., professor İlham Məmmədzadə açaraq qonaqları və tədbir iştirakçılarını salamladıqdan sonra görkəmli şair Bəxtiyar Vahabzadənin yaradıcılığının fəlsəfi məzmununu təhlil edərək onun dövrünün görkəmli yaradıcı şəxsiyyətlərindən biri olduğunu, eləcə də bir çox filosofların şairin şeirlərinə və irsinə olan vurğunluğunu qeyd edib.

Sonra Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Eynulla Mədətli çıxış edib. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bəxtiyar Vahabzadənin 100 illik yubileyi haqqında sərəncamının bu böyük mütəfəkkirin yaradıcılığını bir daha tədqiq etmək üçün yeni imkanlar yaratdığını, Bəxtiyar Vahabzadənin fəlsəfi dünyamızın inkişafında şifahi və yazılı xalq ədəbiyyatımızın misilsiz rolu olduğunu, Kitabi-Dədə Qorqud dastanımızda, bayatılarımızda, laylalarımızda, xalqımızın yaratdığı nə varsa hər birinin məzmununda dərin bir fəlsəfi fikir həyat fəlsəfəsi, yaşamaq fəlsəfəsi, mübarizə fəlsəfəsi, hürriyyət, ədalət fəlsəfəsinin olduğunu vurğulayıb. Bildirib ki, Bəxtiyar Vahabzadə yaradıcılığında azərbaycançılıq ideologiyası, azərbaycançılıq elementləri, Ana Vətənə sonsuz sevgi, Azərbaycan dilinin mübariz mühafizəçisi, onun keşiyində duran, onu yorulmadan təbliğ edən və böyük bir ədəbi irs yaradaraq bizə yadigar qoyub getmiş, ədəbiyyatımızda böyük bir zirvəni fəth etmişdir.

İnstitut əməkdaşlarından elmi işçi Hafizə İmanova "Ömür" şeirini, Gənc alim və mütəxəssislər Şurasının sədri Ceyran Hüseynli "Gülüstan" poemasından bir hissəsini səsləndiriblər.

Tədbirdə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutundan filologiya elmləri doktoru, professor Əlizadə Əsgərli, f.e.d., prof Adil Əsədov, hüquq elmləri doktoru prof. Habil Qurbanov, f.e.d. Füzuli Qurbanov, filologiya elmləri doktoru, professor Tahirə Məmməd, filologiya elmləri doktoru Esmira Fuad, f.ü.f.d, Əli İbrahimov, f.ü.f.d. Ağasəlim Həsənov, siyasi elmlər doktoru, dosent Ramilə Dadaşova, çıxış edərək vurğulayıblar ki, Bəxtiyar Vahabzadə vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır.

Elm .- 2025.- 25 aprel(№14).- S.6.